**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**ELDAR ƏVƏZ OĞLU ŞAHGƏLDİYEV**

# Qloballaşma və fəlsəfə

**DƏRS VƏSAİTİ**

Xəzər Universiteti Elmi Şurasının
06.06.2017-ci il tarixli iclasını 29 nömrəli protokoluna
əsasən dərs vəsaiti kimi
təsdiq edilmişdiir

**Bakı-2017**

**Elmi redaktoru** **Professor, Fərman İsmayılov**

**Rəyçilər:** **Professor İlhamMəmmədzadə**

**Professor Əlikram Tağiyev**

**Eldar ŞAHGƏLDİYEV**
**İnnovasiyalar və onalrın tətbiqinin sosial fəlsəfi məsələləri. (Dərs vəsaiti), "Müəllim" nəşriyyatı, Bakı, 2017. – 34 səh.**

Dərs vəsaiti ali məktəblərin bakalavriat və magistratura səviyyəsi üçün Ümumi fəlsəfə seçmə fənninin tədrisində əlavə yardımçı material kimi nəzərdə tutulmuşdur. Burada qloballaşmanın fəlsəfədə izahı və problem kimi ona dair şərhlər, futuroloji konsepsiyalar, qloballaşmanın növləri və bu hadisənin nəzəri və praktik əsaslarına dair xeyli həcmdə materiallar araşdırılmışdır.

Dərs vəsaitindən qlobal problemlərin fəlsəfi aspektləri ilə maraqlanan geniş oxucu kütləsi, müəllimlər, doktorantlar və digər əlaqədar ixtisaslar üzrə oxucular da istifadə edə bilərlər.

Dərs vəsaiti müəllim və tələbələrə elmi-metodik kömək məqsədilə yazılmışdır.

**© E.Şahgəldiyev, 2017**

MÜNDƏRİCAT

GİRİŞ......................................................................................4

İZAHAT VƏRƏQİ..............................................................9

Plan ....................................................................................11

1. Qlobal problemlərin tarixi təbiət, cəmiyyət və insan problemlərinin qarşılıqlı əlaqəsi və vəhdəti kimi ..........................................................................................12

2. Müasir qlobal problemlərin növləri ..........................17

3. Qlobal problemlərin inkişafına dair futuroloji konsepsiyalar: onların vəhdəti və müxtəlifliyi......................25

ƏDƏBİYYAT......................................................................31

## GİRİŞ

**Qlobal problemlər** və onların fəlsəfi şərhi, tədqiq edildiyi sahələrin (iqtisadi, texniki, mədəni və s.) sosial-fəlsəfi aspektlərinin sistemli şəkildə araşdırılması hazırda geniş vüsət almışdır. Belə ki, təbiət-cəmiyyət-insan problemləri, onların müxtəlifliyi və vəhdəti həmişə filosofları düşündürən məsələ olmuşdur. Qlobal problemlər öz miqyasına və həyatı zəruri əhəmiyyətinə görə nəinki ayrı-ayrı elm sahələrinin, eləcə də sosial və humanitar elmlərin, xüsusilə, fəlsəfnin tədqiqat mövzusuna çevrilmişdir. Doğru olaraq qeyd olunur ki, "qlobal (ən ümumi) problemlər Yer üzündə yaşayan hər bir insana aid edilir və odur ki,  yalnız bizim hər birimizin iştirakı ilə həll oluna bilər. Bu problemlər canlı həyatın, birinci növbədə insan cəmiyyətinin gələcək inkişafından ayrılmazdır, ona görə də "sosial fəlsəfə" kursunda mühüm yer tutur. ("Q.Abbasova, Z. Hacıyev, "Sosial Fəlsəfə" Müasir dövrün sosial inkişafının qlobal problemləri", "Turan Nəşrlər evi", 2011, səh.468. -S. 484). Beləliklə, bir-birindən asılılığın güclənməsi global problemlərin mahiyyətini daha da aktuallaşdırır. Başqa sözlə desək, hava, torpaq, su, müharibə, terror, nüvə və digər bu kimi ümumi təhlükə yaradacaq problemlər bəşəri və ya qlobal

məzmun kəsb edir və ona görə də, bu problem sitemli şəkildə və fəlsəfi prizmadan təhlil olunmalı və gələcəyə dair maksimum mümkün ola bilən proqnozlar verilməlidir. “Hər şey daxil olduğu sistemin onun üzərinə qoyduğu rolu icra edir. Istər könüllü –təbii (bu fiziki səma cisimlərində olur) istər mübarizə ilə (bu canlılarda olur) olsun; şeylər və xarici mühit qarşılıqlı razılaşdırılmış rollar (vəzifələr, davranış, xarakter, xassə) qəbul edirlər. Cansız aləmdə bu ani, demək olar ki, eyni zamanda baş verirsə, canlılarda bu daha uzun qarşılıqlı təsirlər və müəyyənləşmə zamanı tələb edir” (Tofhid Mehdi, Həqiqətə Pəncərə, “Səda” nəşriyyatı, 2008, səh. 36. – S.630)

Məşhur İsveçrə alimi Jan Jak Babel EHM-dən istifadə edərək hesablamışdır ki, son 600 ildə dünyada 14513 müharibə olmuşdur. Bu müharibədə 3640 milyon adam həlak olmuşdur. Bütün bunlar elə bir vaxtda baş verir ki, Yer kürəsi əhalisinin 40%-i təbii xidmətlə əhatə olunmayıbr. 570 milyona yaxın adam doyunca yemir. 3 milyarda yaxın adama təmiz su həmişə qismət olmur, hər il 750 min adam su vasitəsilə keçən xəstəliklərdən ölür. Planetimizin 800 milyon sakini savadsızdır, 14 yaşına qədər olan 250 milyon uşaq məktəbə getmir. Vaşinqtonda olan D. Dyodni yazırdı ki, bəşəriyyət qarşısında indi keyfiyyətcə yəni bir vəzifə, dəyişilmiş ətraf

mühitə uyğunlaşmaq deyil, heyvanlar və bitkilər aləmi ilə gərginliyə deyil, öz silahlarını nəzarət altına almaq, öz səhvlərinin miqyasını məhdudlaşdırmaq vəzifəsi durur. Ən böyük dövlətlər arasında müharibələrin aradan qaldırılması insan təkamülündə mühüm hadisə olub, insan nəslinin gələcəyi üçün həlledici rola malik ola bilər. Indi dünya dövlətlərinin bir məqsədi var. Bu məqsəd işğalçıların terror təşkilatlarının ölüm silahlarını işə salmaq imkanından məhrum etməyə yönəldilməlidir. (Gülka Məhərrəmova, Qlobal problemlər, 20 May, 2014. https://prezi.com/mprpt8wavuj8/qlobal-problem-ler).

Cəmiyyət irəliyə doğru inkişaf etdikcə, daha yeni qlobal tipli problemlər baş qaldırır. Məsələn, "bəşəriyyətin XX əsrin sonu və XXI əsr üçün inkişaf perspektivləri haqqında bir qrup tədqiqatçının 1980-ci illərdə ABŞ prezidentinə edilən məruzəsində aşağıdakı qlobal problemlər sadalanır: 1) Əhali; 2) Ölkələrin iqtisadi qeyri bərabərliyi; 3) Ərzaq; 4) Mineral ehtiyatlar; 5) Meşə, su; 6) Hava; 7) Energetika; 8) Genetika.

Məşhur qərb qlobalisti S.Çeyz özünün bir sıra kitablarında bir dövlətin həll edə bilmədiyi problemləri qlobal

problem adlandırmışdır.”(Gülka Məhərrəmova, Qlobal problemlər...).

Elarua, Teyyar Şardan, F.Engels, Vernadski, Losev, Frolov və başqaları qlobal problemləri fəlsəfi cəhətdən şərh etmişlər və insan-noosfera ölçülərində xeyli araşdırmalar aparmışlar.

Qlobal problemlərin növləri olan energetika, ekoloji problem, müharibə və sülh problemi, milli-etnik və demoqrafik problemlər, terrorçuluq hərəkətləri və terror qruplaşmaları, dünyanın mənzərəsində daha çox görünməyə başlayan və son vaxtlar hətta xalqlardan da gizlədilməyən dini-klerikal mənsubiyyətin qabardılması və qlobal qərəzlilik və buna bənzər xeyli məsələlər bu günlərdə bəşəriyyətin gələci ilə bağlı olan ən aktual fəlsəfi problemlər hesab edilir. Buraya, eləcə də, müxtəlif kulturoloji konsepsiyalar, bəşəriyyətin gələcəyi haqqında olan fəlsəfi və futuroloji nəzəriyyələr də daxildir. Gələcək katastroflar, təbiət hadisələri, bəşəriyyəti gözləyən fəlakətlər, insanın ətraf mühitə müdaxiləsi məsələləri də bu qəbildəndir.

Öz təbiətinə və miqyasına görə irihəcmli xarakter daşıdığından və ümumbəşəri problem olduqları üçün, qlobal problemlərin birlikdə həlli zərurəti yaranmışdır. Bu cəhətdən

Roma klubunun tədqiqatları və onun rəhbəri Aurelia Petçeinin (1908-1984) bu məsləyə münasibətdə fikirləri də xeyli aktual səslənir. O, 1972-ci ildə həmmüılif olduğu və ABŞ-da çap olunan "İnkişafın hüddudları"adli kitabında əhalinin və iqtisadiyyatı həndəsi silsilə ilə inkişaf etdiyini, resursların isə məhdud olmasına dair kompüter simulyasitası hazırlamışdır.

Beləliklə, göründüyü kimi, bəşəri problemlərin həlli hamı üçün əhəmiyyətlidir, lakin biz bunların tam həllindən hələ də çox uzağıq. Təqdim olunan dərs vəsaiti Bakalavr və Magistr tələbələrinin öyrəndiyi Ümumi fəlsəfə kursu üzrə "Qlobal problemlər" modulunun daha yaxşı şərh olunması üçün yeni bir məlumat bazası rolunu oynayacaqdır. Ümid edirik ki, bu vəsait oxuculara müvafiq problemlərin daha yaxından dərk edilməsində yardımçı olacaq və bu shaədə mövcud olan ədəbiyyatların içərisində oxuculara faydalılıq baxımından müsbət addım hesab ediləcəkdir.

## İZAHAT VƏRƏQİ

Azərbaycan Respublikasında elmin inkişafı üzrə Milli strategiyanın həyata keçirilməasi ilə bağlı Dövlət programının təsdiq edilməsi haqqında Azarbaycan Respublikasının Prezidenti fərman imzalamışdır. Bu ondan irəli gəlir ki, elm və təhsil siyasəti dövlət siyasətinin çox mühüm tərkib hissələrindən birini təşkil edir. Elmi və təhsili olmayan bir xalq onu digərindən almağa məcburdur ki, bu da istər-istəməz onu başqalarından asılı vəziyyətə sala bilər.

Qlobal problemlərin həlli üçün Azərbaycan qlobal sosial-siyasi proseslərə qoşulmaqla yanaşı, öz milli düşüncə və təfəkkürünün olmasını, milli varlığının qorunub saxlanmasının da qayğısına qalır. Respublikamız üçün ən problemli məsələlərdən biri, həm də birincisi Azərbaycan-Ermənistan və Dağlıq Qarabağ probleminin həlli ilə bağlıdır və təəssüfllər olsun ki, bu problem də haqsız və qərəzli olaraq artıq danılmaz şəkildə qlobal dini təəssübkeşlik müstəvisinə keçirilir və bu mənada Azərbaycan Respublikası süni şəkildə yaradılmış yeni tip qlobal problemlə üzləşir. Maraqlıdır ki, bu məsələnin həllinin istiqamətində *ədalətli addımlarla bərabər,* həm də *beynəlxalq təşkilatların və institutların funksiyalarını*

*artırmaqla problemi qloballaşdırmağa* və *milli dövlətlərin suverenliyini zəiflətməyə və dövlətlərin suveren hüquqlarını məhdudlaşdırmağa* da ciddi-cəhdlər edilir. Odur ki, müasir fəlsəfə proqramları içtimai və humanitar elmlərdən tələb edir ki, azərbaycançılıq məfkurəsi bütün vasitələrlə inkişaf etdirilsin və qarşıya qoyulan problemlər məhz azərbaycançılıq fəlsəfəsi mövqeyindən təhlil olunsun. Belə ki, fəlsəfə kursunun "Müasir dövrdə qlobal problemlər və onların xüsusiyyətləri" ilə bağlı olan mövzuları da, öz aktuallığı etibarı ilə Azərbaycanın müstəqilliyinin tələblərinə uyğunlaşdırılmalı, dünyada baş verən elmi-texniki, humanitar-mədəni dəyişikliklərin yeni milli metodologiya zəminindən araşdırılmasını təmin etməlidir.

Son illərdə respublikanın alimləri də bu sahədə xeyli əsərlər, elmi işlər, dərsliklər, metodik vəsaitlər və s. yazmışlar. Onların əksəriyyəti öz işlədikləri təhsil müəssisələrini nəzərə almış və mövzuları tərtib edərkən onları da öz prinsiplərinə uyğunlaşdırmışlar. Tərtib etdiyimiz dərs vəsaitində nəzərdə tutulmuş plan və ədəbiyyat siyahısı da verilmişdir. Mövzular təhsilə verilən tələblər əsasında tərtib edilmişdir.

## PLAN

1. Qlobal problemlərin tarixi təbiət, cəmiyyət və insan problemlərinin qarşılıqlı əlaqəsi və vəhdəti kimi
2. Müasir qlobal problemlərin növləri
3. Qlobal problemlərin inkişafına dair futuroloji konsepsiyalar: onların vəhdəti və müxtəlifliyi

## 1. Qlobal problemlərin tarixi təbiət, cəmiyyət və insan problemlərinin qarşılıqlı əlaqəsi və vəhdəti kimi

"Bəşəriyyətin inkişafının müasir mərhələsində qloballaşma onun əsas məzmununu müəyyən edir" desək, yanılmarıq. Bu prosesin əsas səbəblərini, təzahür formalarını, nəticələrini və müxtəlif aspektlərini aydınlaşdırmadan, müasir dünyamızda baş verən sosial, iqtisadi, kulturuloji, geosiyasi və digər prosesləri düzgün anlamaq mümkün deyildir. Müasir dildə desək, "qloballaşma" bəşəri həyat əhəmiyyətli bir məsələ olaraq, keçən əsrin 80-cı illərinin ortalarında meydana gəlmişdir. Bu termin yaranmağı ilə intellektual elitaya güclü təsir göstərmişdir. Həmin terminin yaranması T.Levitin adı ilə bağlıdır. O, 1983- cü ildə "Harvard biznes revyu" jurnalında çap etdirdiyi məqaləsini böyük və çoxmillətli korporasiyaların istehsal etdiyi ayrı- ayrı məhsulların bazarlarının bir- birilə qo-vuşması nəticəsində yaranmış fenomenə həsr etmişdi. Terminin yayılması isə amerikan sosioloqu R.Robertsonun adı ilə bağlıdır. O, 1985- ci ildə **qloballaşma** anlayışının şərhini vermiş, 1992-ci ildə ayrıca bir kitabda öz konsepsiyasının əsaslarını qeyd etmişdir. Yapon alimi K.Omaye 1990 cı ildə

çap etdirdiyi “Sərhədsiz dünya” əsərində qloballaşma anlayışının hərtərəfli izahını verməyə çalışmışdır. M.Uters qloballaşmanı sosial proses kimi müəyyənləşdirmişdir. Həmin sosial prosesin gedişində *sosial və mədəni sistemlərin coğrafi sərhədləri silinir* və əhali getdikcə daha çox bu fərqlərin aradan götürüldüyünü dərk edir. Eyni zamanda, **qloballaşma** dedikdə planetin bütün ölkələrinə qərb inkişaf modelinin yayılması başa düşülür ki, bu da faktiki olaraq birqütblü dünya qaydasının nəzəri cəhətdən əsaslandırılmasına xidmət edir. İndi isə qloballaşmanın yaranma mexanizminə nəzər salaq.

Bir çoxlarımız fərqinə varmasaq da, qloballaşmanın təsirini və işarələrini hər gün həyatımızda görə bilərik. Başqa sözlə, hər gün biz dünyanın müxtəlif bölgələrində istehsal edilən məhsullara və tanımadığımız minlərlə insana arxalanaraq gündəlik həyatımızı qururuq. Bu cür qarşılıqlı asılılıq məhz beynəlxalq ticarətin və qloballaşmanın xidmətləridir. Məhz bütün bunları arqument gətirərək, müasir liberal iqtisadçılar iddia edirlər ki, genişlənən beynəlxalq ticarət və qloballaşma bütün xalqların və insanların maraqlarına cavab verir, çünki bu prosesin nəticəsində hər kəs daha yaxşı imkanlar əldə etmiş olur.

Artiq təkzibolunmaz faktdır ki, zamanla dünyadakı bir çox inkişaf nəticəsində cəmiyyət və cəmiyyəti meydana gətirən insanlar fərdilikdən uzaqlaşmalı olur və daha ümumi olan qlobal proseslərin iştirakçısina çevrilirlər. Bir tərəfdən individualizm gücləndiyi halda, digər tərəfdən qloballaşma meylləri də yüksəlir. Bir sıra fəaliiyət növləri-səyahət, ünsiyyət, iqtisadiyyat, iqlim problәmləri, olimpiya hərəkatı və idman müsabiqələri bir ölkə çərçivəsindən çıxaraq dövlətlərarası qlobal məsələlərə çevrilmişdir.

İyunun 7-9-da, 2017-ci ildə Böyük İyirmilərin (G20 ölkələri) görüşləri zamanı bəşəriyyət iclasın keçirildiyi Almaniyanın Hamburq şəhərində antiqlobalistlərin üsyanı və yürüşləri ilə tanış oldular və, əlbəttə, bu yürüşlərə qarşı ictimai asayiş qüvvələrinin, hətta ordu birləşmələrinin böyük təhlükəsizlik tədbirləri həyata keçirməsi haqqında xəbərlərin şahidi olduq. Burada da təqribən yüzlərlə polisin xəsarət aldığı bir yürüşdə antiqlobalistlər asayişi mühafizə edən qüvvələrlə açıq toqquşmaylara qoşulmuş və dünya brendləri satılan ticarət müəssisələrinə və xüsusilə, müsəlman transmilli şirkətlərinə hücumlar təşkil edərək millyonlarala hesablanan ziyanlar vurmuşlar. Bu yürüşün spesifik xüsusiyyəti ondan ibarətdir ki, o bir tərəfdən “milli ehtiyatlara üstünlük vermək” adıyla qlobal

imkanları rədd edir, digər tərəfdən isə açiq-aşkar dini-klerikal zəmində güclənməkdə olan neo-nasist ideyaları müsəlmanlara qarşı yönəldirlər. Yəqin ki, biz artıq antiqlobalistlərin nə üçün bu hərəkətləri nümayişkaranə və mütəşəkkil formada etdiklərinin səbəblərini araşdırmaqda qərarlıyıq.

Digər tərəfdən, qloballaşmanın bitərəfli olaraq yalnız xeyirli olduğunu hiperqloballaşma konsepsiyası ilə əsasalandıranlar da çoxalmaqdadır. Bu vaxt, son zamanlar üçün çox tez-tez milli dəyərləri üstələyən və iqtisadiyyatların liberallaşdırması, ümumbəşəri dəyərlər və sair kimi konsepsiyalar irəli sürülür.

Əslində, qloballaşma çox qədim dövrlərdən nəqliyyatın və rabitənin inkişafı nəticəsində bir-birindən təcrid edilmiş xalqların ünsiyyətə girməsindən başlamışdı; yəni *təbiət, cəmiyyət və insan problemlərinin qarşılıqlı əlaqəsi və vəhdətinin* realizə olunması üçün elmi-texniki, iqtisadi və digər vasitələr mühüm rol oynayırlar. Bu əlaqələr həmin xalqların heç də həmişə iradəsinə və mənfəətlərinə uyğun olmamışdır. Məsələn, son illərdə Çin elmiu-texniki sahədə xeyli inkişaf etdiyindən, bəzi hallarda kiçik və inkişaf etməmiş ölkələrin iqtisadiyyatı üçün hələ də yeni hesab edilən köhnəlmiş

texnologiyaları eksport edir və bu ticari qlobal əlaqələrdən onlar milyardlarla mənfəət əldə edirlər.

Qloballaşma yeni fenomen deyil, lakin müasir dövrümüzdə o fərqli xarakter almışdır. Bu imkanlardan nəinki dövlətlər və hüquqi şəxslər öz iş fəaliyyətlərində istifadə edir, adi insanlar da sosial şəbəkələr və internetin irəli sürdüyü digər imkanlardan istifadə edərək əlaqə saxlayır, müxtəlif xarakterli informasiya mübadiləsi aparırlar.

Nəqliyyat vasitələrinin inkişafı, qloballaşma prosesini daha da tezləşdirmişdir və bunun nəticəsində dünya get-gedə daha böyük sürətlə vahid məkana çevrilir və bu məkanda informasiya-kommunikasiya sistemləri, məhsul və xidmət mübadiləsi, maliyyə ilişkiləri, beynəlxalq proqramlar, təhsildə daha çox poulyarlaşan Erasmus+, Erasmus Mundus, TEMPUS, TAİX və sair kimi tviniq proqramları qlobal xarakter alırlar. Beləliklə, müasir dövrdə qloballaşma, vahid beynəlxalq iqtisadi, hüquqi, mədəni və informasiya məkanını formalaşdırır. Deməli, bir tərəfdən qloballaşma fəlsəfədə, xüsusilə post modernizm fəlsəfəsində, dekonstruktivist xarakterlə səciyyələnirsə, digər tərəfdən, o, təbiət, cəmiyyət və insan problemlərinin bir araya gətirilməsi və onların qarşılıqlı əlaqələrinin yeni konstruktivist təzahürlərini formalaşdırır.

## 2. Müasir qlobal problemlərin növləri

Müasir qlobal problemlərin təsnifatı və onların əhəmiyyətlilik dədrəcəsi bu günlərdə ən çox müzakirə olunan problemlər içərisindədir. 18-35 yaş arasında rəyi soruşulanların təqribən 70 % -i, qlobal problem kimi özlərinin və həmyaşıdlarının imkanlarının səviyyəsini qeyd etmışlər. Lakin, Qlobal İqtisadi Forumun (QİF) qlobal problemlərin spektrinə dair ən son statistikası hazırda aşağıdakı kimi sıralanmışdır:

1. İqlim dəyişikliyi və təbii ehtiyatların dağıdılması (45.2%);
2. Genişmiqyaslı konfliktlər və müharibələr (38.5%);
3. Dini zəmində baş qaldıran konfliktlər (33.8%);
4. Kasıblıq və onun törətdiyi fəsadlar (31.1%);
5. Dövlətlərin üzərinə düşən məsuliyyət, şəffaflıq və korrupsiya məsələləri (21.7%);
6. Sağlamlıq, təhlükəsizlik və rifah məsələləri (18.1%);
7. Savadsızıq və təhsil problemləri (16.5%);
8. Siyasi azadlığın məhdudiyyəti və siyasi qeyri-sabitlik (15.5%);
9. Ərzaq və su təhlükəsiliyi problemləri (15.1%);
10. Məhdud iqtisadi imkanlar və işsizlik (14.2%). (Tanza Loudenback, Business İnsider, Aug. 23, 2016. The 10 most

critical problems in the world, according to millennials: http://www.businessinsider.com/world-economic-forum-world-biggest-problems-concerning-millennials-2016-8/#10-lack-of-economic-opportunity-and-unemployment-142-1)

Qlobal problemlərin təsnifatı və növləri alimləri daim düşündürən məsələ olmuşdur. Akademik Ramiz Mehdiyev qeyd edir ki, bir sıra Qərb alimləri qlobal problemlərin 4 tipini qeyd edirlər.1.Sülhün qorunub saxlanılması və möhkəmləndirilməsi; 2. İctimai tərəqqini şərtləndirən təminatlar (dinc yanaşı yaşama prinsiplərinin realizə olunması); 3. Şəxsiyyətin azad seçim hüququ (elmi-texniki tərəqqini humanistləşdirilməsi, həyat əhəmiyyətli əsas tələbatların ödənilməsi) və 4. İctimai və fərdi mövcudluğun təbii şərtlərinin qorunub saxlanılması (sosial-iqtisadi ziddiyyətlərin dəf olunması) Qlobal problemləri öz aktuallığına görə təsnif edənlər onları bu cür qruplara bölürlər. (R.E. Mehdiyev, Fəlsəfə, Ali məktəblər üçün dərslik, (Rus dilində), Bakı, 2003, səh. 309. -S.408).

Qlobal problemlərin səciyyəsi çox vaxt kəskin böhran şəraiti ilə eyniləşdirilir. Zənnimizcə, qlobal problemlərin hamısı təcili böhran yaratmasa da, onların mahiyyətində bu xüsusiyyətlər vardır. Bu baxımdan onalar arasında ümumi cəhətlərlə bərabər, fərqli tərəflər də mövcuddur.

Dünyada baş verən *qlobal istiləşmə, ətraf mühitin kəskin çirklənməsi, ənənəvi dəyərlərin dağılması, kütləvi qaçqınlıq, idqarə edilməyən miqrasiya prosesləri, tədricən dərinləşməkdə olan iqtisadi və siyası böhranların sosial-psixoloji müstəviyə keçməsi və bunların nəticəsi olaraq iş yerlərinin kütləvi surətdə bağlanması* və digər bu tipli problemlər  məhz bu prosesin doğurduğu nəticələr hesab edilir.

Professor Ağayar Şükürov qlobal problemləri əsasən ətraf mühitin mühafizəsi, energetika, xammal, ərzaq və demoqrafiya, kosmosdan və dünya okeanından və onun sərvətlərindən dinc məqsədlər üçün istifadə edilməsi, azadlığa çıxmış bir çox ölkələrin iqtisadi geriliyinin aradan qaldırılması, təhlükəli xəstəliklərin ləğv edilməsi və başqa bu kimi problemləri göstərməklə təhlil etmişdir. Bu baxımdan, qloballıq termini üç əsas mühüm mənaya malikdir.

1) Miqyaslı, əhəmiyyətli;

2) Hər şeyi əhatə edən, hər yerdə olan;

3) Ümumbəşəri, ümumdünya, planetar beynəlxalq, beynəlmiləl.

Üümumbəşəri, ümumdünya xarakterli problemlər bu gün həm miqyasına görə, həm də potensial dağıdıcılıq imkanlarına görə

fəlsəfi ədəbiyyatda daha geniş təhlillərə məruz qalır. Zənnimizcə, qlobal problemlərin fəlsəfi məsələlərinin şərhi zamanı, bir tərəfdən bu problemlərin mövcudluğu, digər tərəfdən isə həmin problemlərin həlli dinamikası və onun nəticələrinin hansı istiqamətdə inkişaf etməsi, bu problemlərin səbəbləri, onları yaradan şərait və nəticələri arasında vahid əlaqədə öyrənilməlidir. Çünki istilik-nüvə müharibəsi təhlükəsinə qarşı dünya birlyinin müqavimət balansı, əhalinin demoqrafik dinamikasınn qeyri-sabit və kəskin dəyişilməsi və bunların iqtisadi sistemin əsaslarına təsir imkanları, əhalinin ərzaq, elektrik enerjisi, içməli su və təhsil ilə təmin edilməsində yaranan çətinliklər, ətraf mühitin kəskin çirklənməsi və ekoloji böhran, təhlükəli yoluxucu xəstəliklərin, narkomaniya və alkoqolizmin kütləvi xarakterdə yayılması dəyişməsi, innovasiyaların və yeni texnologiyaları tətbiqi ilə yaranan mənəvi və psixoloji, iqtisadi və sosial aşınmaların güclənməsi və sair kimi problemlərin kütləvi qırğınlar yaratması artıq həyati faktlar kimi daha böyük tezliklərdə təkrar olunur.

Qlobal problemlərin dünya sivilizasiyasının taleyi üçün əhəmiyyəti onların tədqiq edilməsini zərurətə çevirir. Qlobal proseslərin elmi baxıntdan öyrənilməsinin genişləndirilməsi aktual nəzəri və praktiki məsələdir. Bü məsələnin həlli müasir elmi biliklər sistemi qarşısında yeni üfüqlər açır, təbiət elmləri, texniki və humanitar elmlərin daha

da sıx inteqrasiya etməsinə şərait yaradır; fundamental və tətbiqi tədqiqatların dialektikasını, elmi və sosial yanaşmalar arasında qarşılıqlı əlaqəni üzə çıxarır; gələcəyin inteqrativrsintetik elmının əsaslarmı və ilkin zəminini formalaşdmr. Bu elmin fəlsəfi mahiyyətinin dərk edilməsi zəruriliyi indiki dövrdə daha aşkar görünür.

Olobal problemlərin başvermə və ya başqaldırma səbəblərinin təhlili, bu problemlərin evalyusiya və inkişaf dinamikasının nəzərə alınması həmin problemlərin tipoloji klassifikasiyası üçün mühüm onəm daşıyır.

Qlobal problemlərə dair Azərbaycanda formalaşmış ictimai fəlsəfi fikirlərdən biri ondan ibarətdir ki, bu və ya digər qlobal problemin kəskinlik və aktuallıq dərəcəsi, bəzi qlobal problemlərin digərləri ilə müqayisədə prioritet təşkil etməsi, onların iyerarxik quruluşu üçün subordinativ münasibətlərin təyin edilməsi həmin problemlərin təsnifatının aparılması üçün vacib hesab edilir.

Əlbəttə, təsnifatın aparılması strateji məqsəd daşımasa da, hər bir qlobal problem növünün mahiyyəti, spesifik inkişaf dinamikası bəzi nəzərə çarpmayan daxili proseslərin də aşkara çıxarılmasına yardım edir. Belə ki, qlobal problemlərin klassifikasiyası onların qarşılıqlı əlaqəsini və bir-

birini şərtləndirməsini müəyyənləşdirməyə kömək edir; bununla da, bu və ya digər qlobal problemin ən yaxın nəticələri və uzaq perspektivləri asanlıqla aşkar edilə bilir və onların izahını və həll yollarını tapmağı mümkün edir. Tofhid Mehdi haqlı olaraq, "Həqiqətə pəncərə" adlı əsərində qeyd etmişdir: "Bir qayda olaraq maddi və mənəvi xarakterli qlobal problemlər fərqləndirilir; bunlardan birincisinə xammal, energetika, ərzaq və ekologiya problemlərini, ikincisinə isə informasiya, dezinformasiya, identikliyin böhranı, yəni, insanın daim dəyişən müasir dünyada öz yeri və rolu haqqında aydın təsəvvürünü itirməsi, işsizlik nəticəsində yaranan mənəvi düşkünlük və s. problemləri aid edilir. Bəzi tədqiqatçılar qlobal problemləri dörd qrupa bölür və eyni zamanda, onları müəyyən iyerarxiya üzrə təqdim edirlər: 1) sülhün qorunub saxlanması və möhkəmlənməsi; 2) ictimai tərəqqi şəraitinin təmin edilməsi (dirıc yanaşı yaşama prinsiplərinin həyata keçirilməsi, iqtisadi və mədəni geriliyin aradan qaldırılması); 3) şəxsiyyətin seçim azadlığının müdafiəsi (elmi-texniki tərəqqinin humanistləşməsi, əsas tələblərin təmin edilməsi); 4) ictimai və fərdi mövcudluğun təbii şəraitinin qoıunub saxlanması (sosial-iqtisadi ziddiyyətlərin aradan qaldırılması)." (Tofhid Mehdi, "Həqiqətə pəncərə", Bakı, 2008. – S.630)

Daha sonra o qeyd edir: “Bəzi mütəxəssislər qlobal problemləri onların kəskinlik və aktuallıq dərəcəsinə görə təsnif edir və bu halda üç qrupu fərqləndirirlər:

1) intersosial qlobal problemlər (istilik-nüvə müharibəsinin qarşısının almması, yeni beynəlxalq iqtisadi qaydaların müəyyən edilməsi);

2) "cəmiyyət-təbiət" sistemi ilə əlaqədar qlobal problemlər (əhalinin enerji, içməli su ilə təmin edilməsi, digər iqtisadi problemlər);

3) "insan-cəmiyyət" sistemi ilə əlaqədar qlobal problemlər (demoqrafiya, səhiyyə, təhsil problemləri və s.).” (Tofhid Mehdi, “Həqiqətə pəncərə”, Bakı, 2008. – S.630)

Azərbaycanlı tədqiqatçi T. Şirvanova müasir qlobal problemlərin təsnifatını verərkən (Təranə M. Şirvanova, Metodiki vəsait ,“Qloballaşma və milli dövlətlərin problemləri” , Bakı, 2015, səh.3 – S.26) daha yeni model irəli sürmüş və bu probıemlərin aşağıdakı kimi qruplaşmasını tövsiyə etmişdir:

- Sərhədyanı iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin intensivləşməsi;
- Soyuq müharibədən sonrakı başlamış dövr;

- Dünya iqtisadiyyatının transformasiyası, dunya bazarının anarxiyaya istiqamətləndirilməsi;
- Amerika dəyərlər sisteminin qələbəsi, neoliberal iqtisadiyyat proqramının siyasi demokratikləşmə proqramı ilə kombinasiyasının təmin edilməsi;
- Bazarda çalışanların tam məntiqi və qaçılmaz kulminasiyasına güclü tendensiyanı təmin edən ortodoksal ideologiya;
- Çoxsaylı və sonu görünməyən social nəticələrə gətirən texnoloji inqilab;
- Milli dövlətlərin qloball həll tələb edən qlobal problemlərin (demoqrafiya, miqrasiya, ekolgiya, insan hüquqları və nüvə silahının yayılması)

Beləliklə, qlobal problemlərin optimal həlli yollarını tapmaq üçün bu gün fəlsəfədə yeni qlobal şüurun formalaşması prosesi gedir. Təbii olaraq, dəyişilmiş mürəkkəb şıraitə uyğun olaraq bu yeni təfəkkür formasının və ya düşüncə tərzinin yaranması insanlığın qarşılaşdığı bəşəri problemlərin – qlobal dilemmaların həlli yolunda son dərəcə vacibdir. Lakin bu yeni şüur forması, eyni zamanda, bütün qlobal problemləri mövcud olduğu

sahələrdə ayrı-ayrılıqda-ekoloji şüur, demoqrafik təfəkkür, nuklear şüur və digər formalarda təzahür etməkdədir. Bunlar, həm də öz növbəsində, yeni bəşəri dəyərlər sisteminin - “qlobal insaniyyət"in formalaşması üçün ilkin şərt hesab edilir. Əlbəttə, bu ünsiyyətlərin intişar tapması və inkişafının fövqündə dayanan element - humanist yanaşmalar kompleksinin üstünlük təşkil etməsidir. Bu, qlobal problemlərrin fəlsəfi həllində *insana və qlobal şüura qayıdış* deməkdir.

### 3. Qlobal problemlərin inkişafına dair futuroloji konsepsiyalar: onların vəhdəti və müxtəlifliyi

Fututuroloqlar bu günlərdə özlərini daha çoz futuristlərə bənzədirlər, çünki nəyin baş verəcəyini öncədən görmək xeyli çətinləşmişdir. Zamanı düzxətli hərəkəti üzrə mühakimə etsək, gələcək zamanın elə bir hissədir ki, o artıq elə indi baş verməkdədir. Bu mənada, gələcək keçmişlə ziddiyyət təşkil edir. Gələcək və ya gələcəyə dair futuroloji konsepsiyalar insan idrakında və fəlsəfədə həmişə mühüm yer tutmuşdur. Çünki, insan həyatının böyük bir hissəsi baş verəcək hadisələrin öncə planlaşdırılması və gələcəyin müəyyən mənada görünməsi ilə əlaqədardır. Odur ki, gələcəyin

görünməsinə cəhd insan təbiətinə xas olan bir keyfiyyətdir. Bununla bərabər, futuroloji konsepsiyaların qurulması o qədər də asan məsələ deyildir; bu, bir tərəfdən qlobal erudisiya tələb etdiyi halda, digər tərəfdən, kreativlik, müdriklik və zəngin daxili düşüncə tələb edir. Bu ən azı onunla bağlıdır ki, gələcək heç də bu günkü kimi olmayacaqdır və əgər biz bu gün ətrafımızda olanlarla gələcəkdə nələrin baş verə biləcəyini deyə bilsəydik, o vaxt nə indiki, nə də keçmişdəki hadisələrdən heç bir komponenti bu oyuna daxil etməzdik. Məsələn, Eynşteynə qədər onun fizika elmi ilə tanış olanların heç biri nüvə enerjisi və nüvə partlayışına dair öncəgörmələr edə bilməmişdi. Bunu, Voltun elektrikin təsirinə dair fikirlərinin zamanı xeyli qabaqlamasına dair konsepsiyasına da aid etmık olar. Yaxın gələcəkdə dərhal nəyin baş verəcəyini demək də çətindir. Lakin buna dair fəlsəfi futuroloji konsepsiayaların qurulması heç vaxt dayanmayıb. Onlardan bəzilərinə nəzər salaq:

a. Gələcəyə dair təlimlərin dominantlığı bir sıra yəqinliklərin hasil olunmasına cığır açır. Onlardan bəziləri movcud olur, bir qismi isə hələ baş tutmamış olaraq qalmaqdadır.
b. Yalnız mövcud olan hə isə bir şey, fəlsəfi mənada digər bir şeyin mövcudluğuna səbəb olur. Bu mənada onlar qarşılıqlı surətdə əlaqə və vəhdət təşkil edirlər.
c. Məntiqi prosedurlar Riyazi formulalara yol açır.
d. Bəşəriyyət daim dəyişməkdə olacaqdır.

e. Universal qanunlar, entropiya (çaşqınlıq və konfyziyalar) daim artmaqda olacaqdır.
f. Çox müxtəlif səbəblərdən baş versə belə, insan təbiəti daim sabit olaraq qalacaqdır.
g. Daha uzaq gələcəyi öncələdikcə, daha çox qeyri-müəyyənliklərə düçar oluruq.

Müasir dövrdə yaxın gələcəyə dair konseptual baxışın formalaşması daha geniş vüsət almışdır. 2020-ci ilə qədər birinci səviyyədə ən yaxın problemlər sırasına aşağıdakılar şamil olunur:

- Qloballaşma geridönməz xarakter almışdır və onun Qərb meylləri get-gedə daha da azalmaqdadadır.
- Dünya iqtisadiyyatı daha da və miqyaslı genişlənmələrə məruz qalmaqdadır.
- Qlobal firmaların və şirkətlərin yaranması kritik biliklərin və innovativ texnologiyaların daha geniş şəkildə yayılmasına səbəb olur.
- Dunyanın hakim gücləri əhalinin daha genişmiqyaslı yaşlanması ilə qarşı-qarşıyadır.
- Yer üzərinin enerji ehtiyatları qlobal ehtiyacları ödəmək üçün kifayət edir.
- Qeyri hökumət hesab edilən güclərin xüsusi çəkisi artmaqdadır.
- İslam siyasəti həlledici gücə malikdir.

- Ölkələr daha dağıdıcı KQS-yə (kütləvi qırğın silahlarına) sahib olacaqlar.
- Dünyanın qeyri sabit mənzərəzi Yaxın Şərqdən Asiya və Afrikaya addımlayacaq.
- Böyük güclərin toqquşması ən az ehtimal olunandır.
- Ətraf mühit və etik məsələlələr daha böyük qloballıq kəsb edəçəkdir.

2020-ci ilə qədər ikinci səviyyədə ən yaxın problemlər sırasına isə aşağıdakılar daxildir:

- Texnoloji inkişaf ya indiki vəziyyətdə qalacaq və ya bir qıdər inkişaf edəçəkdir.
- Dünya əvvəlki kimi yenə də bərpa olunmayan enerjidən asılı qalacaqdır.
- Dünya ölkələri ikitərəfli razılaşmalar əsasında daha etibarlı olacaqlar.
- Ölkələrin iqtisadi inkişafı və millətlərin rifahı arasında uçurumlar genişlənəcəkdir.

Qloballaşmanın əleyhdarları hesab edirlər ki, beynəlxalq ticarətin liberallaşdırılması inkişaf etməkdə olan ölkələrə inkişaf etmiş ölkələrin bazarlarına daxil olmaqda məhdudiyyətləri saxlamaqla ticarət baryerlərini aradan qaldırır. Buna görə də, bu proses dünyanın ayrı-ayrı regionları arasında qeyri-bərabərliyi artırmaqla onların arasında “assimetrik asılılığın” yaranmasına

gətirib çıxarır. Yeni Şimal, yəni sənaye baxımdan inkişaf etmiş dünya "qloballaşma" prosesinin əsas "meneceri" rolunda, dünyanın digər bölgələri bu prosesin əsasən subyektləri rolunda çıxış edirlər.

Hazırda müasir qlobal problemlərin yaranması səbəblərini üç qrupa bölürlər: Birincisi, ictimai inkişafın əzəli obyektiv ziddiyyətləri - cəmiyyət, insan və təbiət arasındakı ziddiyyət; ikincisi, ədalətsiz cəmiyyətin ümumi böhranının güclənməsi; üçüncüsü, dünyanın iki bir-birindən fərqli düşərgəsində elmi-texniki inqilabın sürətli inkişafı.

Əgər bir neçə qlobal problemi nəzərdən keçirsək görərik ki, alimlərin əksəriyyəti qlobal problemlərin həllinin real və konkret yollarını axtarırlar. Müasir dövrün qlobal problemlərinin həlli ziddiyyətli prosesdir və iki şərti özündə cəmləşdirir. Bir tərəfdən həmin problemlər getdikcə kəskinləşir və onun həlli bir-birinə zidd sosial iqtisadi sistemin, dövrün əsas ziddiyyətləri əks olunan ideologiyaların mübarizəsi şəraitndə həyata keçirilməlidir. Ikinci tərəfdən, qlobal problemlərin həlli yalnız bütün ölkələrin iştirakı siyasətində beynəlxalq əməkdaşlıq nəticəsində mümkündür.

Müxtəlif sosial sistemlər və dövlətlərin əməkdaşlığı qlobal problemlərin həll edilməsinin başlıca şərtlərindən biridir.

Beləliklə belə bir nəticə çıxarmaq olar ki, insanla təbiət arasında olan əlaqə bir-birinə mənfi təsir göstərmişdir. Insan təbiətdən öz məqsədinə nail olmaq üçün istifadə etməklə ekoloji tarazlığı pozmuş, təbiət isə bunun müqabilində insan mühitinə, insan cəmiyyətinə öz gücünü göstərmişdir. Texnologiya və rəqabətli inkişaf bu qlobal probıemlərin yaranması üçün daim əsas mənbə rolunu oynayır.

**ӘDӘBİYYAT**

1.F.Ramazanov. Fəlsəfə. Bakı, 2001

2.R.Aslanova. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004

3.A.Şükürov. Fəlsəfə və qloballaşma. Bakı, 2002

3. R.E. Mehdiyev, Fəlsəfə, Ali məktəblər üçün dərslik, Bakı, 2003, səh. 309. -S.408

4.Ə.Tağıyev. Qloballaşma və millilik fəlsəfi-siyasi reallıqlar kontekstində. Bakı, 2010

5.Ə.Tağıyev və b. Qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı, 2007

6.Ə.Tağıyev, M.Şükürov. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı, 2004

7.Gülka Məhərrəmova, Qlobal problemlər, 20 May,2014.https://prezi.com/mprpt8wavuj8/qlobal-problemler

8.Q.Abbasova, Z. Hacıyev, “Sosial Fəlsəfə” Müasir dövrün sosial inkişafının qlobal problemləri”, “Turan Nəşrlər evi", 2011, səh.468.-S. 484).

9.E.Ə. Şahgəldiyev, Məqalə: Türk dünyasının qlobal inkişafının yeni meylləri (The New Trends of Global Development in Turkish World) (İngilis dilində): Xəzər Xəbər, 15 sentyabr, 2009, No. 273, səh.17-19.

10.E.Ə.Şahgəldiyev, "Qloballaşma: Şəxsiyyətlərarası əlaqələrin mütəşəkkil icma qruplarında bəzi implikasiyaları", (Mədəniyyətlərarası dialoq üzrə Dünya Forumu, "Müasir Dünyada Mədəni Müxtəliflik və Dialoq Fəlsəfəsi". Beynəlxalq konfrans, Bakı, Azərbaycan, 7-9 Aprel, 2011.səh. 124-127;

11.E.Ə.Şahgəldiyev, Məqalə: Çoxmədəniyyətli əmək kollektivi ilə şəxsiyyətin inkişafının qarşılıqlı əlaqəsi və nisbəti. Məqalə: Azərbaycan Beynəlxalq Humanitar Forum, Oktyabr-5-7, 2012, Bakı şəhəri (İngilis dilində); Bakı, Xəzər Xəbər, oktyabr 2012, No. 311, səh.26-28. (İngilis dilində) "Correlation of multicultural labor units and development of personality (socio-philosophical aspects)"

16.E.Ə.Şahgəldiyev, Məqalə:Müasir dövrdə innovativ texnologiyaların tətbiqinin bəzi sosial-fəlsəfi aspektləri. Xəzər Xəbər, İyun, 2013, No. 320, səh.26-27. (Azərbaycan dilində)

17. E.Ə.Şahgəldiyev, Məqalə: Innovasiyaların sosial-fəlsəfi təhlili (Socio-philosophical analysis of innovations- İngilis dilində) Jurnal: İMPACT, Amerika-Azbaycan Ticarət Palatası, No 18, 2013, səh. 46-48

18. E.Ə.Şahgəldiyev, Kitab: Neft istehsal edən ölkələrin müasir problemləri və Azərbaycanda neftdən asılı olmayan iqtisadiyyatın qurulması yolları. İngilis dilində. (Müqayisəli yanaşma) MODERN CHALLENGES OF OIL PRODUCING COUNTRIES AND THE WAYS FOR ESTABLISHING A NON-OIL DEPENDENT ECONOMY IN AZERBAIJAN (Comparative approach), İngilis dilində, Bakı, "Müəllim" nəşriyyatı, 2014-cü il, 95 səhifə (Həmmüəllif) İSBN 978-9952-435-55-9

19. Marks K. Annenkova məktub 28 dekabr 1846. seç məkt. Səh 22-23. Bakı 1955.

20. Qasımzadə F. Tarixi materializm. Səh 321-346. Bakı 1969.

21. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Səh 331-349. Bakı 1996.

22. Ekologiyanın fəlsəfi problemləri, Bakı, 1982.

23. Təranə M. Şirvanova, Metodiki vəsait ,"Qloballaşma və milli dövlətlərin problemləri" , Bakı, 2015, səh.3 – S.26

24. Şükürov A. Müasir dövrün qlobal ekoloji və demoqrafik problemlərinin sosial- fəlsəfi mahiyyəti, Bakı, 1984.

25. R.E. Mehdiyev, Fəlsəfə, Ali məktəblər üçün dərslik, (Rus dilində), Bakı, 2003. -S.408.

26. Tofhid Mehdi, "Həqiqətə pəncərə", Bakı, 2008. – S.630